AZƏRTAC – Azərbaycan Dövlət İnformasiya Agentliyi

# GDU-da “Rebuild Karabakh” hakatonu ilə bağlı tədbir keçirilib

14.10.2025 [12:05]

Gəncə, 14 oktyabr, Elcan Məmmədov, AZƏRTAC

Gəncə Dövlət Universitetində (GDU) tələbələr üçün “Ağıllı şəhər, yaşıl gələcək: WUF 2026-ya doğru” layihəsi çərçivəsində “Rebuild Karabakh” hakatonu ilə bağlı tədbir keçirilib.
Universitetdən AZƏRTAC-ın bölgə müxbirinə bildirilib ki, tədbirdə universitetin Azad Tələbə Həmkarlar İttifaqı Komitəsinin sədri Pərviz Adıgözəlov layihənin əsas məqsədi barədə ətraflı məlumat verib. Qeyd edib ki, bu layihə gənclərin innovativ ideyalarını dəstəkləmək, onların texnoloji bacarıqlarını və yaradıcılıq potensialını inkişaf etdirməklə, Qarabağın bərpası prosesinə və ağıllı şəhər konsepsiyalarının reallaşmasına töhfə verəcək.
Layihənin rəhbəri Günel Qurbanova, həmçinin layihənin meneceri Fatimə Əzizova çıxış edərək, “Ağıllı şəhər, yaşıl gələcək: WUF 2026-ya doğru”nun “Qarabağın Tərəqqisi Naminə” İctimai Birliyinin, Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyinin köməkliyi ilə həyata keçirildiyini vurğulayıblar. Qaliblər mentor-dəstək, eləcə də investorlara çıxış imkanı və WUF13-də iştirak hüququ qazanacaqlar.
Tədbir zamanı GDU-nun tələbələrinin texnoloji və elmi potensialının hakaton üçün əhəmiyyəti diqqətə çatdırılıb.
Sonda tələbələrin sualları cavablandırılıb, hakatona qoşulma qaydaları və qeydiyyat prosesi izah edilib.

© Materiallardan istifadə edərkən hiperlinklə istinad olunmalıdır